## Dəqiq diaqnoz...

Prostat vəzinin xəstəliklərinin diaqnostikası müxtəlif yollarla aparılır:

- Barmaqla müayinə zamanı həkim prostat vəzinin ölçülərini, hüdudlarını, sərtliyini müəyyən edir.
- Diaqnozu dəqiqləşdirmək üçün kiçik çanaq üzvlərinin və prostat vəzinin ultrasəs müayinəsi aparıla bilər.
- Sidiyin, qanın və prostat şirəsinin laborator müayinələri də diaqnozun qoyulması üçün istifadə oluna bilər.
- Prostat vəzinin xərçənginin dəqiq diaqnostikası üçün xüsusi müayinələrə (biopsiya  və ya prostat spesifik antigen – PSA) ehtiyac ola bilər.

## Profilaktika

Prostat vəzinin xəstəliklərinin qarşısını almaq üçün aşağıdakı profilaktik tədbirləri görün:

- Soyuq və nəmli yerlərdə oturmayın
- Mütəmadi idmanla məşğul olun
- Sağlam qidalanın
- Cinsi əlaqənin müntəzəmliyinə diqqət yetirin
- Spirtli içkilərə və siqaretə aludə olmayın
- Cinsi həyatınızda çox ehtiyatlı olun
- İldə 2 dəfə müayinədən keçin

İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 15 fevral 2016-cı il tarixindən etibarən fəaliyyətə başlayıb. Agentlik səhiyyə sahəsinə ayrılan vəsaitlərin daha səmərəli istifadə edilməsi ilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına xidmət edir.


İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

@itsgovaz

its.gov.az

www.its.gov.az

Bakı şəh., Z.Əliyeva küç. 93

+994 12 310 07 70


İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

# Prostat vəzinin xəstəlikləri



## Prostat vəzinin xəstəlikləri

Prostat vəzi kişilərin cinsi fəaliyyəti və nəsilartırması üçün çox vacibdir. Prostat vəzinin ölçüləri, forması, sıxlığı hər kişidə fərqlənir. Prostat vəzi yaş artdıqca hormonal dəyişikliklərə məruz qalır. Ancaq prostat vəzinin xəstəlikləri heç də həmişə yaşdan asılı olmur. Prostat vəzinin infeksiyalaşması və soyuq dəyməsi nəticəsində prostatit xəstəliyi yaranır. Bu xəstəlik kəskin və xroniki (uzun sürən) olur.

Kəskin prostatitə nadir hallarda rast gəlinir. Tam və düzgün müalicə olunmadıqda xroniki prostatitə çevrilir. Xroniki prostatit isə daha çox sinir sistemi ilə əlaqəlidir və ən azı 3 ay ağrılar verir.

Prostat vəzində yaşla əlaqəli problemlər də üzə çıxa bilər. Məsələn, prostat vəzinin adenoması (xoşxassəli şişi) 40 yaşını keçən hər kişidə ola bilər. Bu, qanda kişi hormonunun azalması ilə izah olunur.

Bu vəzin xəstəlikləri arasında ən qorxulusu isə prostat vəzinin xərçəngidir. Xüsusən, yaşlı kişilər arasında ilbəil artan xəstəliyin əmələgəlmə səbəbləri hələ dəqiq müəyyən edilməyib.

## Səbəb çox...

### Bəs prostat vəzinin xəstəliklərinin səbəbi nədir?

Bir çox xəstəliklər kimi, prostat vəzinin xəstəlikləri də həm irsi, həm yaş, həm də xarici amillər səbəbindən yarana bilər:

- Cinsi yolla keçən infeksiyalar, sidik kanalı, böyrəklər və sidik kisəsinin iltihabı, yaxud sidik-cinsiyyət üzvlərinin travmaları prostatda xəstəliklərə yol açır.
- Siqaret, spirtli içkilər və digər zərərli vərdişlər prostata pis təsir göstərir.
- Piylənmə, qəbizlik, oturaq iş, az hərəkətlilik prostat vəzinin xəstəliklərinin inkişafına təkan verir.
- Tez-tez soyuqlama
- Cinsi həyatın pozulması (qeyri-müntəzəm, yarımçıq yaxud uzadılmış cinsi aktlar)
- Fiziki yorğunluq
- Əsəb gərginliyi

## Prostat vəzinin xəstəliklərinin aşağıdakı əlamətləri olur:

- Tez-tez sidik ifrazı
- Sidik kisəsinin tam boşalmaması hissiyyatı
- Sidiyi saxlaya bilməmək
- Sidik ifrazı zamanı yanğı və ağrı
- Yüksək hərarət və üşütmə
- Qarnın aşağı hissəsində, qasıq nahiyəsində, beldə, budların içəri tərəfində ağrı
- Xüsusən, gecə saatlarında tezləşmiş sidik ifrazının olması
- Sidik ifrazına başlamağın çətinləşməsi
- Sidik axınının zəifləməsi (damcı-damcı, kəsintili)
- Sidikdə qanın olması

**Bu əlamətlər varsa, təcili olaraq həkim-uroloqa müraciət edin!**

# Unutmayın ki,
## prostat vəzinin xəstəlikləri kişi sonsuzluğuna səbəb ola bilər.